# İnsanlara həyat bəxş edən şəxsiyyət

**Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95 illik yubileyi münasibətilə Dövlət Sərhəd Xidmətinin (DSX) bütün hərbi hissə və bölmələrində təntənəli tədbirlər keçirilib.**

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, xidmətin qadın hərbi qulluqçuları ənənəvi olaraq Fəxri xiyabana gələrək Zərifə xanım Əliyevanın məzarı üzərinə tər çiçəklər düzüb, xatirəsini dərin ehtiramla yad ediblər.

Dövlət Sərhəd Xidmətinin Aparatında dünya şöhrətli alim, ictimai xadim Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən fotosərgi ilə tanışlıqdan sonra rəsmi mərasim keçirilib.

Tədbirdə Milli Məclisin deputatı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi Elmira Axundova minlərlə insanın gözlərinə nur bəxş etmiş istedadlı alim, görkəmli pedaqoq Zərifə xanım Əliyevanın zəngin və mənalı ömür yolu barədə geniş məlumat verib. Qeyd edilib ki, Zərifə xanım Azərbaycan elmi üçün gözəl tədqiqatçı, ulu öndər Heydər Əliyev üçün sədaqətli ömür-gün yoldaşı, sadiq dost, övladları üçün qayğıkeş ana və ən yüksək mənəvi keyfiyyətlərə malik nəcib insan idi. Zərifə xanımın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər Azərbaycan tibb elminin parlaq səhifələridir. Onun elmi fəaliyyətinin nəticələri 150-dən artıq əsərdə, 10 monoqrafiyada, həkimlər üçün dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodiki tövsiyələrdə əksini tapıb. Göz xəstəlikləri üzrə elmi-tədqiqat işləri akademik Zərifə xanım Əliyevaya böyük şöhrət gətirib və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırıb.

Diqqətə çatdırılıb ki, fundamental elmi tədqiqatları ilə oftalmologiyanın inkişafına böyük töhfələr verən akademik Zərifə xanım Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadın olub. Akademik Zərifə xanım Əliyeva böyük ictimai fəaliyyəti ilə də daim ön sıralarda olub, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyətinin idarə heyətinin üzvü olub. Görkəmli alim əməkdar elm xadimi fəxri adına layiq görülüb.

Sonra rejissor Vaqif Mustafayevin "Heydər Əliyev. Əsl məhəbbət haqqında" sənədli filmi nümayiş etdirilib.

***"Azərbaycan"***



Azərbaycan.- 2018.- 28 aprel.- S.5.